***Şaiq ƏLİYEV*** *

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ CƏNUBİ QAFQAZDA GEOSİYASI VƏ GEOİQTİSADİ MARAQLARI

**Açar sözlər:** Xarici siyasət, Cənubi Qafqaz, demokratik cəmiyyət, iqtisadi layihələr, geosiyasi maraqlar

**Ключевые слова:** Внешняя политика. Южный Кавказ, демократическое общество, экономические проекты, геополитические интересы

**Key words:** Foreign policy, South Caucasus, democratic society, economic projects, geopolitical interests

Amerika Birləşmiş Ştatları və Avropa İttifaqının xarici siyasətində Cənubi Qafqaz və Xəzəryani regionda yaranmış olan yeni müstəqil dövlətlərlə münasibətləri mühüm yer tutur. Bir əsr ərzində ikinci dəfə müstəqiliyini qazanan Cənubi Qafqaz dövlətlərinin Qərbə inteqrasiyasının genişləndirilməsi istiqamətində aparılan siyasətdən də aydın görünür ki, bu iki aktorun, regionun strateji əhəmiyyəti baxımından geosiyasi və geoiqtisadi maraqları mövcuddur. Həm ABŞ, həm də Avropa İttifaqı, onlar üçün Cənubi Qafqaz dövlətləri ilə inkişaf etdirilmiş qarşılıqlı münasibətlərdə əsas məqsədin iqtisadi və siyasi maraqları baxımından Rusiyanın mövqeyini zəiflətmək olduğunu gizlətmirlər.

2001-ci ilin əvvəlində yeni əsrin gəlməsi ilə ABŞ yeni hökumətinin Cənubi Qafqaz siyasəti tamamilə dəyişmiş oldu. 11 sentyabr hadisələrindən sonra Əfqanıstan və İraq müharibələri ABŞ hökümətinin xarici siyasət konsepsiyasını köklü şəkildə dəyişmiş oldu. Cənubi Qafqazın enerji potensialı Avropanın enerji təchizatı baxımından Rusiyaya alternativ olaraq qalırdı. (13) Cənubi Qafqazın hər üç dövləti antiterror koalisiyaya qoşulmaqla yanaşı hərbi əməliyyatlara bu və ya digər formada öz yardımlarını göstərmişdi. Gürcüstan üç dövlət arasında daha aktiv formada hərbi əməliyyatlarda iştiak etmiş, Azərbaycan isə Əfqanıstanda ABŞ qoşunlarının ehtiyaclarına cavab verən mühüm logistika mərkəzi halına gəlmişdi. (9) Ancaq hər üç ölkə, ABŞ-la əlaqələri üçün bu öhdəliklərin əhəmiyyətinə

* **Əliyev Şaiq** - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı

baxmayaraq, Amerika xarici siyasət gündəmində birinci yer tutmurdu. Buna baxmayaraq, ABŞ hökuməti Dağlıq Qarabağ və ya Abxaziyadakı hərbi əməliyyatlara son qoyma, keçid dövründə yeni müstəqil dövlətlərə yardım göstərmək və Transkafqaz nəqliyyat dəhlizinin qurulması üçün öz köməkliyini göstərirdi. Cənubi Qafqaz dövlətləri, onların yaranma tarixindən etibarən, amerikalılar və avropalılar tərəfindən Avropa siyasi və sosial-mədəni məkanının bir hissəsi kimi qəbul edilmişdi.

ABŞ-ın Cənubi Qafqazda siyasətinin növbəti mərhələsi Gürcüstandakı "Qərənfil inqilabı"ndan sonra başlamışdı. Bu inqilab nəticəsində Şevarnadze də hakimiyyətdən getdi və qərbyönümlü siyasətçilərin hökuməti yaradıldı. Hakimiyyətə ABŞ-da hüquq təhsili almış Mikayıl Saakaşvili və onun gənc və dinamik komandası gəldi. Dövlətin idarə olunmasında yeni proqramlar və tədbirlər həyata keçirən Gürcüstan hökuməti ABŞ-la münasibətləri inkişaf etdirməkdə maraqlı idi. Daxili problemləri həll etməklə yanaşı Gürcüstan hökuməti Brüssel və Vaşinqtonu Qərbə inteqrasiya planları haqqında da məlumatlandırırdı. ABŞ prezidenti, oğul Corc Buşun prezidentliyi dövründə ABŞ-ın xarici siyasətinin prioritet sahələrindən biri olan demokratik dəyərlərin artırılması olduğundan Gürcüstanda baş verən dəyişikliyi dəstəkləyəcəyini bildirmişdi.

Qafqaz tədqiatçılarından biri olan Zurab Bataşvili Gürcüstanın geosiyasi mövqeyinə qiymət verərkən qeyd edir ki, Gürcüstan hərbi sahədə digər dövlətlərə nisbətən ABŞ-la daha fəal əməkdaşlıq edir və Qərb sivilizasiyasının asossiasiya olunmuş üzvlüyünə namizəddir.(6) Cənubi Qafqazın geosiyasi mühitini Gürcüstansız təsəvvür etmək mümkün deyil. Xəzər regionunda Qərbin, xüsusilə də ABŞ-ın enerji siyasətində Qərbə inteqrasiyaya daha çox üstünlük verən bu dövlətin coğrafi mövqeyi onun digər potensialından daha üstündür. Təbii ki, ABŞ da bu dövləti öz tərəfinə çəkmək üçün mümkün vasitələrdən istifadə edir. ABŞ-ın Gürcüstana Cənubi Qafqaz dövlətləri arasında daha çox dəyər verməsinə misal kimi E.Şevarnadze, ABŞ hökümətinin bu dövlətə 650 milyon dollar yardım göstərməsini qeyd edərək bildirmişdir. (3) Lakin ABŞ-ın Gürcüstana maddi yardımı bununla bitmir, yeni Respublika yarandığı dövrdən 2006-cı ilə qədər ABŞ hökumətindən 1.1 milyard dollar dövlət xətti ilə maddi yardım almışdır. Bundan başqa, Gürcüstan qeyri-hökumət təşkilatlarının xətti ilə də maddi yardım almışdır. (8)





2003-cü ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin vəfatından sonra Prezident İlham Əliyev də Azərbaycanda demokratik cəmiyyətin inkişafı üçün hər cür şərait yaratmışdı. Buş hökuməti demokratik dəyərlərin get gedə artdığı Azərbaycan Respublikası ilə də münasibətlərinin inkişaf etdirilməsi marağında idi.

Bu hadisələrin fonunda ABŞ, regionun inkişafı üçün bir islahat proqramı hazırladığını və bu islahat proqramının həyata keçirilməsi nəticəsində Gürcüstanın və Azərbaycanın Qərbə yönələn siyasətə üstünlük verəcəklərini fikirləşirdi. Gürcüstan 2004-cü ildə NATO və Avropa Birliyinə üzv olan Polşa, Rumınıya və Baltikyanı ölkələrin yolunu getməyə çalışırdı. "Rusiyanın orbitini" tərk etməyi qərara aldıqdan sonra Gürcüstan və Azərbaycan əvvəlcə NATO-ya, daha sonra AB-nə üzv olmaq üçün islahatlar həyata keçirməyə başlamışdı. Ermənistnda isə demokratik dəyərlərin inkişafı demək olar ki, dayanmışdı.

ABŞ-ın Cənubi Qafqazla baqlı siyasətində növbəti əsaslı dəyişiklik 2008-ci ildə rus-gürcü müharibəsi və 2014-cü ildə Ukrayna hadisələrindən sonra olmuşdu. Rusiya Krımın anneksiyasından sonra keçmiş sovet dövlətlərinin NATO-ya daxil olmasına və qərbyönümlü siyasətin daha da inkişaf etdirilməsinə göz yuma bilməzdi.

Qərbin Türkiyənin radikal siyasi addımlarının genişlənməsinə manеə törətmək üçün bir çox qaynaqları var. ABŞ və Avropa Birliyinin Türkiyənin Cənubi Qafqaz dövlətlərinə təsirinin artırılması ilə bağlı planlarında Rusiya dövləti artıq nəzərə alınmışdır. Bu şəraitdə Birləşmiş Ştatlar Türkiyənin qonşu dövlətlərindən hər hansı birinin və ya strateji maraqları zonasında olan bölgələrin siyasi və müdafiə siyasətinin zəifləməsinə maraq göstərmir. Vaşinqtonun Türkiyə ilə bağlı müdafiə və təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində dostluq niyyətlərinin nümayiş etdirilməsi ilə yanaşı, Türkiyəyə qarşı yeni geosiyasətin mürəkkəb hallarını nəzərdən keçirərək təcridetmə siyasəti də yürütdüyünü qeyd etmək olar.

Cənubi Qafqazda mövcud münaqişələrin həll olunması istiqamətində ABŞ-ın həyata keçirtdiyi siyasəti bu və ya digər formada qiymətləndirmək olar. Belə ki, ABŞ tərəfindən dəstəklənən və maliyələşən QHT-lər Ermənistanın zəifləməsinə, onun həyat qabiliyyətinə və müdafiə siyasəti ilə bağlı mövqelərini itirməsinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində start düyməsinə basmağa heç bir maraq göstərmə-

mişdilər. Müasir dövrdə Vaşinqtonun Cənubi Qafqazla bağlı siyasətində vəziyyət ciddi şəkildə dəyişdi və ABŞ üçün Ermənistan siyasi mənada tamamilə səmərəsiz bir ölkəyə çevrilmişdir. Ermənistan indi də NATO-nun rəqibi və Rusiya kimi, təcrid olunmalı bir ölkə kimi qəbul edilir.

ABŞ-ın 2010-cu il tarixli Milli Təhlükəsizlik Strategiyasına görə, Vaşinqtonun strateji hədəfləri üç başlıq altında toplana bilər. Bunlar daxili təhlükəsizliyin təmin edilməsi, ittifaqların əhatəli şəkildə davamı, beynəlxalq nizamın təsisi və sabitliyidir.(11) Beynəlxalq nizam "qlobal təhdidlərə qarşı ABŞ-ın liderliyində yaradılması nəzərdə tutulan ədalətli bir ittifaq" kimi dəyərləndirilir. Bəhs edilən beynəlxalq nizam "maraqların inkişaf etdirilməsi" rubrikası altında nəzərdən keçirilir. Bu, ABŞ-ın milli maraqlarının inkişafına xidmət edən bir ideya xarakteri daşıyır. Bu mövzu ilə əlaqədar olaraq, ABŞ-ın digər təsir mərkəzləri ilə qarşılıqlı təsirin təmin edilməsinin faydası üzərində dayanılır.

Sənəddə, Rusiya 21-ci əsrin təsir mərkəzlərindən biri kimi qəbul edilir. Bundan başqa, sənəddə ABŞ-ın ikitərəfli əlaqələrini inkişaf etdirməsi labüd olan üç dövlət yer almışdır. Bu ölkələr Çin, Hindistan və Rusiyadır. Bu dövlətlər ilə müştərək maraqlar əsasında əməkdaşlığın artmasının vacib olduğuna toxunulur. Bununla birlikdə, Rusiyanın yaxın ətrafının suverenliyinin və ərazi bütövlüyünün qorunması məsələsinə ABŞ-ın dəstək verəcəyi qeyd edilir. Cənubi Qafqazın Rusiya dövlətinə yaxın ətraf əraziləri olmasını nəzərə alsaq ABŞ-ın xarici siyasətində bu regionun əhəmiyyətini qiymətləndirmək mümkündür.

2011-ci ilin sentyabrında Vaşinqtonda keçirilmiş "Cənubi Qafqazda müstəqilliyin 20 illiyi: nailiyyətlər və sınaqlar" adlı konfransda Amerikanın Müdafiə Nazirliyinin Rusiya, Ukrayna və Avrasiya Məsələləri üzrə direktoru Jennifer Walsh Cənubi Qafqazın ABŞ-ın təhlükəsizliyi üçün niyə vacib olmasının 5 səbəbini belə qeyd etmişdir:

1. Cənubi Qafqazın coğrafi mövqeyi. İranla sərhəd olması. İrandan yayıla bilən təhlükə, o cümlədən nüvə materialları, həm də Cənubi Qafqazdan keçə bilər.
2. Cənubi Qafqaz ABŞ-ın Əfqanıstandakı qoşunlarının təchizatının şimal yoludur.
3. Cənubi Qafqaz Avropanın enerji təchizatında mühüm rol oynayır. Bu region həm enerji mənbəyidir, həm də Orta Asiya-dan enerji dəhlizidir.





4. Cənubi Qafqaz regionunda sabitlik və münaqişələrin həlli ABŞ-ın təhlükəsizlik marağında olan məsələdir.
5. ABŞ Cənubi Qafqaza daha geniş mənada Avropanın bir hissəsi kimi baxır və region dövlətlərinin Avropa institutlarına qoşulmasında maraqlıdır. (1.s165)

Yuxarıda sadalananlardan aydın olur ki, Cənubi Qafqaz ABŞ-ın xarici siyasətində mühüm yer tutur və məhz İran məsələsinin birinci bənddə yer alması isə ABŞ-ın regionda narahatlığının əsas səbəbinin göstəricisi kimi qiymətləndirə bilərik. Bu gün ABŞ-İran qarşıdurmasının əsas səbəblərindən biri İranın nüvə silahına yiyələnməsidir. Qərb nüvə proqramının icrasının qarşısını almaq üçün İrana qarşı bir sıra sanksiyalar tətbiq edir. Beynəlxalq müqavilələrə və qanunlara görə, İran uranı zənginləşdirə və nüvə proqramından sülh məqsədləri üçün istifadə edə bilər. Məhz bu prizmadan çıxış edərək İran uranın zənginləşdirilməsinin yasaqlanmasının hüquqi əsası olmadığını bildirir. Dünya ölkələrinin bərabər hüquqlara malik olduğunu deyən İran BMT-yə üzv olan digər ölkələrlə müqayisədə Hindistan, Pakistan və İsrailin nüvə silahının yayılmaması barədə müqavilə imzaladığını əsas gətirir. Hazırda İran öz nüvə fəaliyyətlərini iki əsas arqumentlə əsaslandırır. Əvvələ, rəsmi Tehran İranın nüvə proqramının əsas məqsədinin ölkənin elektrik ehtiyacını qarşılamaq olduğunu iddia edir. İran bu fəaliyyətinin Nüvə Silahlarının Yayılmasının Qarşısının alınması Müqaviləsini imzalamasının ona verdiyi haqq olduğunu vurğulamaqdadır. İkincisi, rəsmi Tehran nüvə proqramının dinc məqsədli olduğunu və ideoloji baxımdan nüvə silahı istehsalının İslami olmadığını vurğulamaqdadır. ABŞ isə İranın zəngin enerji mənbələrinə malik olduğunu, bu məqsədlə nüvə proqramını davam etdirməsini inandırıcı hesab etmir. Rəsmi Vaşinqtonun ikinci arqumenti isə təhlükə kimi gördüyü İran rejiminin nüvə proqramının monitorinqi məsələsində yetərincə şəffaf davranmaması və Beynəlxalq Atom Enerjisi Agentliyi ilə lazımi əməkdaşlıq etməməsidir. Mütəxəssislərin hesablamalarına görə, Buşehr AES-nə xərclənən vəsait hesabına ölkəni elektrik enerjisi ilə bütünlükdə təmin edəcək başqa stansiyalar tikmək olardı. Nəzərə alsaq ki, İran dünyanın ən çox qaz ehtiyatına malik olan ölkəsidir, onda İranın Buşehr AES-nə xərclənən pullarının enerji eşqindən daha çox, nüvə tutqusu ilə əlaqəli olduğunu söyləmək olar. Son 25 ilin təcrübəsi onu da göstərir ki, nüvə

silahına yiyələnən ölkələrin heç biri ilə belə kəskin mübarizə aparılmayıb və əsasən barış siyasəti yürüdülüb. Ancaq 11 sentyabr hadisəsindən sonra dünyanın super gücü olan ABŞ İran kimi ölkələrin əlində nüvə silahının olmasıyla heç bir zaman razılaşa bilməz və bu artıq siyasətdən daha çox, milli təhlükəsizlik məsələsinə çevrilib. 2002-ci ilin yanvar ayının 29-da Konqressdə "Ölkədə vəziyyət haqqında" proqram xarakterli çıxışında Prezident Corc Buş ABŞ-ın terrorizmə qarşı konkret mübarizə hədəflərini açıqladı. (2, s.125) Bu proqramda Cənubi Qafqaz dövlətlərinin terrorizmə qarşı mübarizəyə qoşulmasını yüksək qiymətləndirmişdi.

Gürcüstanın özünün əhəmiyyətli neft və ya qaz ehtiyatlarının mövcud olmamasına baxmayaraq, onun ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan boru kəməri Avropanı təchiz etmək məqsədi daşıyır.(15) Rusiya, həmçinin geosiyasi və geoiqtisadi baxımdan Cənubi Qafqazda maraqlı olan dövlətlər (İran, Körfəz dövlətləri) bu kəmərin əleyhinə idi.(12, s.19) Çünki bu kəmər Avropanın Yaxın Şərq ölkələrindən ixrac olunan neftdən asılılığını azaldırdı və ABŞ-ın layihə daxilində olan Cənubi Qafqaz dövlətlərini dəstəkləməsinin əsas səbəblərindən hesab olunurdu.(10)

Göründüyü kimi, ABŞ-ın Cənubi Qafqaz siyasəti onun enerji təhlükəsizliyinin və qlobal təhlükəsizlik hədəflərinin bir nəticəsi şəklində qiymətləndirilə bilər. Enerji təhlükəsizliyi çərçivəsində Xəzər regionu buradan əldə edilən enerjinin qlobal dövriyyədəki rolu baxımından əhəmiyyət kəsb edir. Xəzər regionundan əldə edilən enerjinin növ və mənbə baxımından diversifikasiyasına nəzər salındığı zaman, ABŞ-ın regiona olan diqqətini görmək mümkündür. Cənubi Qafqaz, Xəzərdəki enerjinin nəqli yolu üzərində olması ilə əlaqədar ABŞ-ın maraq sahəsinə daxil edilir.

Digər tərəfdən, ABŞ-ın Cənubi Qafqazda hərəkət sərbəstliyini qoruma hədəfi regiona istiqamətlənən siyasətinin amillərindən biri kimi görülə bilər. Bu siyasətin nəticəsi kimi, ABŞ Xəzərdəki enerji qaynaqlarının nəqlini nəzarətdə saxlamağı hədəfləyir. Bundan başqa, ABŞ qlobal enerji tələbatı üzərində təsir gücünü əlində saxlamağa əhəmiyyət verir. Bu səbəbdən, ABŞ üçün bu hədəflərin təmin edilməsində Cənubi Qafqazda demok-ratiya və iqtisadiyyatın sərbəstləşməsi kimi liberalizm amilləri bir vasitə kimi istifadə edilə bilər.

Buna əlavə olaraq, ABŞ-ın təhlükəsizlik hədəflərindən biri kimi qlobal təhlükəsizlik faktına toxunulur. Bu hədəfə uyğun olaraq, dünyanın əsas regionlarında nüfuz sahibi olan digər güclər təhdid kimi dəyərləndirilir.





ABŞ prezidenti Donald Trampın müasir dövrdə apardığı siyasətdən göründüyü kimi, onun üçün əsas daxili siyasətə daha çox üstünlük verərək, xarici siyasətlə bağlı proqramlara çox az əhəmiyyət verir. Yerli ekspertlərin fikrincə Tramp administrasiyası bölgədə praqmatik, mənfəətə söykənən siyasət aparır ki, bu da Azərbaycanın geniş neft və qaz ehtiyatları, dünyəvi dövlət nüfuzu, terrorizmlə mübarizə sahəsində müsbət xidmətlərini nəzərə alır.

Müasir dövrdə AB-ın Cənubi Qafqaz siyasəti öz aktuallığını saxlayır. Bu barədə kifayət qədər mütəxəssis rəyi mövcuddur. Ekspertlər daim məsələnin müxtəlif aspektləri haqqında fikir bildirirlər. ABŞ-da rəhbərliyin dəyişməsi ilə Cənubi Qafqaz siyasətində müəyyən çalarların yeniləşməsini gözdən qaçırmaq olmaz. Artıq 25 ildən çoxdur ki, həmin sahədə təcrübə toplanıb. Region dövlətləri ilə dünyanın ən qüdrətli ölkəsi arasındakı əlaqələrin hansı istiqamətdə inkişaf edə biləcəyi, təbii ki, indi də ciddi maraq obyektidir. Bu bağlılıqda Moskva Karnegi Mərkəzinin bir analitik hesabatı diqqətimizi çəkdi. (7, s.101). Bu hesabatda Cənubi Qafqaz dövlətlərindən Gürcüstanın ABŞ-ın yaxın tərəfdaşı olması, Azərbaycanın yürütdüyü müstəqil xarici siyasətdə ABŞ-ın yeri, Ermənistanın Rusiyanın diqtəsi əsasında ABŞ-la münasibətlərinin gərgin saxlanılması haqqında geniş məlumat verilir. Cənubi Qafqaz ərazisində həyata keçirilən enerji layihələri baxımından ABŞ-ın xarici siyasətdə bu regionun inkişafında maraqlı olduğunu da gizlətmir.

Son dövrdə ABŞ prezidenti Donald Trampın xarici siyasətində regionda Rusiya, Türkiyə və İranla bağlı siyasətinin müsbət yöndə inkişaf etməməsi, Cənubi Qafqaz dövlətlərinə də təsirsiz ötüşmür. Belə ki, ABŞ-ın İrana qarşı tətbiq etdiyi yeni sanksiyaların "Cənub Qaz Dəhlizi" layihəsinə aid olması, bu layihədə iştirak edən dövlətləri ciddi şəkilldə narahat edirdi. Lakin bu barədə "S&P Global Platts" agentliyi ABŞ Prezidenti Donald Trampın müvafiq qərarına istinadən açıqlama yayıb.(4) Məlumatda bildirilirdi ki, BP "Cənub Qaz Dəhlizi" üçün təbii qaz mənbəyi olan Azərbaycanın "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi layihəsinə sanksiyaların şamil olunmaması məqsədilə icazə almaq istəyib. İranın "NICO" şirkəti isə "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsində

10 faiz paya malikdir. Bildirilir ki, ABŞ-ın noyabrın 4-dən qüvvəyə minəcək enerji sahəsinə aid yeni sanksiyaları İranla biznesi davam etdirən şirkətlərə aid olacaq.

Məlumatda qeyd edilir ki. D.Trampın qərarında "təbii qaz layihəsi istisna olunur" ifadəsi işlədilir ki, bu da "Cənub Qaz Dəhlizi"ni nəzərdə tutur.(4) Belə olduğu halda aydın görünür ki, ABŞ-ın Cənubi Qafqazda geoistisadi və geosiyasi maraqlarının qorunub saxlanması onun xarici siyasətinin əsas prioritet məsələlərindən biridir.

Hazırda Azərbaycanda bütün etnik qruplar əvvəlki kimi mehriban və bütün hüquqları təmin edilmiş şəkildə yaşayırlar. Azərbaycan davamlı olaraq mədəniyyətlərin, dinlərin və sivilizasiyaların əməkdaşlığına həsr edilmiş beynəlxalq tədbirlər həyata keçirir. Bu tədbirlərə dünyanın müxtəlif guşələrindən minlərlə nümayəndə gəlir və böyük razılıqla gedirlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Əli Həsənov "Azərbaycan Respublikasının milli inkişafı və təhlükəsizlik siyasəti " Bakı-2011, 433 s. s 165
2. Elman Nəsirov "Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri" Bakı 2010, 386 s., s. 125
3. Azərbaycan çoxvektorlu və tarazlaşdırılmış xarici siyasət xəttini uğurla həyata keçirir "Azərbaycan"qəzeti №230, 06.10.2000
4. Azərbaycan Respublikas Energetika Naziri Oktay Şahbazov: "Star" NEZ-in açılması Azərbaycanın bölgədə enerji sahəsində mövqeyini daha da gücləndirəcək https://azertag.az/xeber/Nazir_Star_NEZ_in_achilmasi_Azerbaycanin_bolgede_enerji_sahesinde_movqeyini_daha_da_guclendirecek-1206515
5. ABŞ qlobal enerji tələbatı üzərində təsir gücünü əlində saxlamağa əhəmiyyət verir http://xalqqazeti.com/az/news/620
6. Trampdan sanksiyalarla bağlı Göstəriş: Cənub Qaz Dəhlizinə şamil olunmasın! http://modern.az/az/news/
7. Баташвили З. Теория Хантингтона и Турецко-Кавказские отношения// Центральная Азия и Кавказ (Central ASIA and the Caucasus). 2 (26) 2003, с. 100-109
8. Eugene Rumer, Richard Sokolsky, Paul Stronski.Политика США на Южном Кавказе: Армения, Грузия и Азербайджан / Carnegie.ru, 13 fevral 201
9. Чигорин А. Российско-Грузинские отношения Что дальше// https:// cyberleninka.ru/article/n/rossiya-i-gruziya-napryazhennost-sohranyaetsya







10. Azerbaijan-US Relations. — Embassy of the Republic of Azerbaijan to the United States of America // http://www.azembassy.us/foreign-policy/azerbaijan-us-relations.html
11. Anne Gearan (9 avqust 2008). "Georgia's oil pipeline is key to U.S. support". San Francisco Chronicle
12. A National Security Strategy For A New Century. Global Security: http:// www.globalsecurity.org/military/library/policy/national/nss9912.htm. s.19.
13. Emin Makhmudov; Mikhail Zygar (25 may 2005). "Revolutions in the Pipeline". Kommersant.
14. Hilzenrath D. S., Graham B. Bush to Receive Azerbaijan's Leader. — Washington Post. — April 28, 2006 // http://www.washingtonpost.com/wp-dyn/content/article/2006/04/27/AR2006042702215.html; National Energy Policy Development Group, National Energy Policy: Report of the National Energy Policy Development Group.
15. Pagnamenta, Robin (8 avqust 2008). "Analysis: energy pipeline that supplies West threatened by war Georgia conflict". *The Times*.
16. History of the U.S.A. and the EU". U.S. Mission to the European Union. Archived from the original on 2017-12-01. Retrieved November 28, 2017.
17. Avances en el proceso de adhesión de Croacia al Acuerdo de Asociación entre Centroamérica y la Unión Europea. Bruselas, 13 de mayo de 2014. http://www.sice.oas.org/tpd/cacm_eu/Accession_New_Members/Croatia_accession_s.pdf
18. Washington, DC: Government Publishing Office, May 2001 // https://www.nrc.gov/docs/ML0428/ML042800056.pdf


## GEOPOLITICAL AND GEO-ECONOMICS INTERESTS OF THE UNITED STATES IN THE SOUTH CAUCASUS
## SUMMARY


In the foreign policy of the United States and the European Union, relations with the newer established states in the South Caucasus have great importance. Promoting the independence policy of South Caucasian countries in the West, which gained suverenity for the second time in a century, contributes to the existence of the geopolitical and geo-economic interests of the United States in terms of the strategic importance of the region. They do not conceal that the main goal of the relations with the states of the South Caucasus is to weaken Russia's economic and political interests in the region. The article covers the importance of relations between the United States and the South Caucasus after the collapse of the Soviet Union and thous geopolitical interests in the region.

## ГЕОПОЛИТИЧЕСКИЕ И ГЕОЭКОНОМИЧЕСКИЕ ИНТЕРЕСЫ США НА ЮЖНОМ КАВКАЗЕ

## РЕЗЮМЕ

Во внешней политике США и Европейского Союза большое значение имеет отношения с созданными на Южном Кавказе независимыми государствами. Политика расширения связей Южнокавказских государств с Западом способствует усилению геополитических и геоэкономических интересов США с точки зрения стратегического значения региона. Они не скрывают, что главной целью взаимоотношений с государствами Южного Кавказа является ослабление экономического и политического влияния России в регионе. В статье отмечается важность отношений между Соединенными Штатами и Южным Кавказом после распада Советского Союза и геополитических интересов США в регионе.